**Redaksiyaya daxil olub:** 13.01.2018

# H. Zərdabinin Azərbaycanda xeyriyyə cəmiyyəti yaratmaq uğrunda mübarizəsi

**Rəna Qurbanova**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorantı,*
*ARTİ*
**E-mail:** rena_qurbanovabk.ru

**Rəyçilər:** ped.ü.f.d.,dos. Y.T. Rzayeva,
ped.ü.f.d., dos. T.Ə. Vahabova

**Açar sözlər:** H.Zərdabi, xeyriyyə cəmiyyəti, pedaqoji fikir, Azərbaycan maarifçiləri, XIX-XX əsrlər

**Ключевые слова:** Г.Зардаби, общество благотворительности, педагогическая мысль, просветитель Азербайджана, XIX–XX века

**Key words:** G.Zardabi, society of charity, pedagogical thought, enlightener of Azerbaijan, XIX-XX century

H. Zərdabinin maarifçilik fəaliyyəti çoxşaxəli, çoxistiqamətli xarakter daşıyır. O, gah alim, gah hüquqşünas, gah pedaqoq, gah publisist, gah kənd təsərrüfatı mütəxəssisi, gah qəzet redaktoru və ya müxbir, gah duma deputatı, gah ictimai xadim və s. kimi fəaliyyət göstərir. Gah xeyriyyə cəmiyyəti yaradır, gah teatr işləri ilə məşğul olur, gah qəzet nəşr etməyə təşəbbüs göstərir. Bir sözlə, vətənpərvər ziyalı ətalət girdabında uyuyan həmvətənlərini səfsətə və cəhalət yuxusundan qurtarmaq üçün zamanın tələbinə uyğun olaraq hər nə mümkünsə, onu da edir. Xalqı maarifləndirmək, onu yeni dövrün ab-havasına müvafiq surətdə tərbiyələndirmək yolunda bir sıra gərəkli tərbiyə vasitələrinin yaradılması və inkişafı naminə fədakarlıqla çalışır. Həmin vasitələr sırasında aşağıdakıları xüsusilə qeyd etmək olar: xeyriyyə cəmiyyətləri, milli teatr və milli mətbuat yaratmaq; yeni – Avropa tipli təhsil ocaqları, məktəblər açmaq və xalqın övladlarını bu məktəblərə cəlb etmək; kütlə arasında şifahi şəkildə təbliğat-təşviqat aparmaq və s.

Azərbaycanda ilk xeyriyyə cəmiyyətinin, milli teatrın və milli mətbuatın bünövrə daşını qoyan H. Zərdabidir.

Doğrudur, qədim və orta əsrlərdə Azərbaycanda müəyyən xeyriyyəçilər olmuşlar. Lakin müasir mənada, yəni təşkilati anlamda, cəmiyyət formasında ilk xeyriyyə cəmiyyətinin yaradılmasının təşəbbüskarı bu böyük maarif mücahididir. O, həmin təşəbbüsə ilk dəfə 1871-ci ildə Bakı realnı gimnaziyasında müəllim işləyərkən girişmişdir. Bu barədə müəllif 1905-ci ildə "Həyat" qəzetində (25 noyabr, 8 dekabr) dərc olunan "Cəmiyyəti – xeyriyyə binası" adlı məqaləsində yazır: "1871-ci sənədə mən də bizim müsəlmanlar üçün bir belə cəmiyyəti-xeyriyyə nizamnaməsi" tərtib edib və bir neçə qeyri-adamlara da onun ərizəsinə qol çəkdirib, sərdara verib təsdiq elətdirdim. Amma mənim çağırışıma nə ki, bir qeyri-müsəlman, hətta ərizəyə qol çəkənlər də gəlmədi" (6).

AMEA-nın Əlyazmalar İnstitutunda H. Zərdabinin fondunda saxlanılan və "Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi" (Bakı, 2006) kitabına da daxil edilən bir məktubdan bəlli olur ki, vətənpərvər pedaqoq belə bir cəmiyyət yaratmaq təşəbbüsü ilə 1871-ci ildə may

ayının əvvəllərində Bakı qubernatoru Staroselskiyə müraciət etmişdir (5, 40-45).

Rus dilində yazılmış həmin məktub həcmcə xeyli müfəssəldir. Burada müəllif xeyriyyə cəmiyyətinə ianə toplamaq məqsədilə Şamaxıya, Gəncəyə, Tiflisə, İrəvana, Naxçıvana və s. yerlərə gedişindən də söz açır.

H. Zərdabi ərizə ilə bərabər xeyriyyə cəmiyyətinin nizamnaməsini də təsdiq üçün Bakı qubernatoruna təqdim etmişdi. Az sonra nizamnamə təsdiq edilmişdi. 46 maddədən ibarət nizamnamə belə adlanır: "Müsəlmanlardan dərs oxuyan uşaqlara iyanət etmək üçün fərahəm olan icmanın vaxtilə qərar olunan qaidəsidir" (1).

Xeyriyyə cəmiyyətini yaratmaqda əsas məqsəd ianə toplamaq və bunun hesabına kasıb, maddi cəhətdən imkansız azərbaycanlı uşaqlarını məktəbə cəlb edərək oxutmaq idi. Həsən bəy Nizamnamənin ilk maddəsində cəmiyyətin məqsədinin nədən ibarət olduğunu aydın şəkildə ifadə etmişdi: "İcmanın məqsədi" bu qərar islədur: əvvələn: bu mənzur ilə ki, Zaqafqaziyada olan müsəlmanlar için labüdlük üz verir ki, elmə rəqib olsunlar və çünki onların çox hissəsi fəqir olmaq səbəbilə elmxanələrdən uzaq yerlərdə sakin olanları üçün məqdur olmuyur ki, öz uşaqlarını elm təhsil etməgə versünlər. Buna binasəyin olunur Badukübə şəhərində məcmun-əanət ta ki fəqir olan şəxslərdən uşaqlarına elm verməyə xahiş edənlərinə əanət etmək için" (1).

Nizamnəmənin 6-cı maddəsində isə bir daha vurğulanır ki, "İcma şagirdlərin cümləsinə götürüləcəkdir. Hər bir müsəlman əhalisinin ki, elm kəsb etməyə qüdrəti yoxdur və əksərən yetim olan uşaqlardır" (1).

Maraqlıdır ki, hökumət dairələri də rəsmi səviyyədə Həsən bəyin təşəbbüsünə rəğbətlə yanaşırlar. Qafqaz Təhsil Dairəsinin müdiri 1871-ci ildə bu münasibətlə Qafqaz camisinə göndərdiyi məktubunda yazırdı: "Cənubi Qafqaz ölkəsində ilk dəfə Bakıda, müsəlman mühitində belə bir fikir meydana gəlmişdir ki, gənc oğlanların təlim və tərbiyəsinə qayğı göstərmək yalnız hökumətin işi olmayıb, həm də cəmiyyətin vəzifəsinə aiddir"...Həmin cəmiyyətin planına mənim yanımdakı popeçitel şurasında baxılmış və ehtimal ki, tezliklə siz əlahəzrətin baxmasına və imperator əlahəzrətlərinin təsdiqinə veriləcəkdir" (3, 412).

Cəfakeş maarifçinin təşəbbüsü müəyyən qədər də olsa, öz səmərəsini verdi. Onun "Kavkaz" qəzetində çap edilən bir məlumatından öyrənmək olur ki, 1871-ci ilin sentyabr və oktyabr aylarında cəmiyyətin hesabına ümumilikdə cəmi 1305 manat pul toplanmışdır. H. Zərdabi cəmiyyətə pul verənlərin siyahısını və onlardan hər birinin verdiyi pulun məbləğini də göstərir.

QTD-nin müdiri özünün illik hesabatında müsəlmanlar arasında belə bir cəhdin və xeyirxah işin baş verməsindən heyrətini gizlətmirdi: "Bu hadisənin əhəmiyyətini bir də ona görə qeyd etmək lazımdır ki, yerli əhalinin təhsili işində hökumətə kömək edən cəmiyyət təşkilinin ilk cəhdi xristianlar arasında deyil, məhz müsəlmanlar arasında meydana gəlmişdir" (3, 413). QTD-nın müdiri həmin illik hesabatında "cəmiyyəti-xeyriyyə"nin təşəbbüsü və fəaliyyəti nəticəsində həyata keçirilən tədbirlərin bəhrəsi olaraq dövlət məktəblərində oxuyan müsəlman uşaqlarının miqdarının xeyli sayda artmasına da diqqəti cəlb edir. Bunu əhəmiyyətli bir məsələ kimi təqdir edir və yazır: "Keçən il dövlət məktəblərində oxuyan müsəlman şagirdlərinin sayı 140 nəfərdən çox artmışdır və şübhəsiz ki, daha çox artacaqdır. Belə ki, Bakı gimnaziyasında hətta kasıb müsəlmanlardan olub dövlət məktəblərində oxuyan şagirdlərə kömək cəmiyyəti təşkil edilmişdir və bu cəmiyyətin banisi yerli realnı gimnaziyanın təbiət elmləri müəllimi Həsən bəy Məlikovdur" (3, 413)

H. Zərdabinin yuxarıda adını çəkdiyimiz rus dilində yazılmış məktubundan bəlli olur ki, o, 1871-ci ildə may ayının əvvəllərində yaratmaq istədiyi xeyriyyə cəmiyyətinin nizamnaməsini

Bakı qubernatoruna təqdim etdikdən və az sonra onun rəsmi surətdə təsdiqinə nail olduqdan sonra ianə yığmaq təşəbbüsü ilə işə girişir. Bunun üçün o, həmin ilin yay fəslində Qafqazda azərbaycanlılar yaşayan bir çox yerləri gəzir. İyun ayının 15-də Bakıdan çıxan maarif xadimi Şamaxıya gəlir. Daha sonra Gəncəyə, iyunun 15-də Tiflisə yola düşür. 1 iyulda Tiflisə çatır, 15 iyulda İrəvana, 26 iyulda Naxçıvana, nəhayət, 2 avqustda Şuşaya gəlir (5, 40-45).

Məktubunda təsvir etdiyi təfsilat, cəmiyyətdən ötrü pul toplamaq məqsədilə etdiyi bu səyahət və onun nəticələri barədə H. Məlikov 1905-ci ildə "Həyat" qəzetində çap olunan "Cəmiyyəti-xeyriyyə binası" məqaləsində bir daha məlumat verir. Söylənən təfsilat bu fədakar insanın millət və onun tərəqqisi yolunda nə qədər ciddi çətinliklərlə, tənələrlə, namünasib situasiyalarla üzləşdiyini aydın göstərir. O, xalq işi uğrunda yayın istisində həftələrlə yol gedir, yüz kilometrlərlə məsafə qət edir.

Hər bir mədəni millətdə zamanın tələbi ilə meydana gəlmiş bir neçə "Cəmiyyəti-xeyriyyə"nin olduğunu deyən Həsən bəy cəmiyyətlərin lazımi faydalı işi ancaq pul vasitəsi ilə həyata keçirə bildiklərini nəzərə çatdırır. Xəsislik göstərdiklərini, onun mahiyyətini və faydasını başa düşmədiklərini söyləyir. Eyni zamanda bunun səbəbini də izah edir: "Çünki hər bir xeyir işin artıq nəfi olmağı pul ilədir və belə xeyir işə artıq pul verən çox az olar. Ələlxüsus bizim müsəlmanlardan. Çünki xeyir iş görmək qanacaq ilədir və qanacaq elm ilədir, amma heyif ki, bizim müsəlmanlarda azdır. Ondan başqa hansı işin artıq xeyri olmağını da bilmək lazımdır" (6).

Kütlənin cəhalət və düşüncəsizlikdən doğan bir sıra adətləri, əməlləri nəinki xalqa fayda verir, əksinə ona zərər yetirir. H. Zərdabi buna nümunə olaraq mərsiyəxanlara, iş qabiliyyəti olan dilənçilərə verilən pulları misal çəkir. Belə adamlara verilən pulların nəticəsində ilbəil onların sayı artır. Halbuki həmin pulları yığıb, bir "miskinxana" açıb dilənçilik edənləri oraya cəm edib həmin pula onlara yemək, içmək verib müəyyən sənət öyrətmək daha faydalı olar. Belə olduqda "bu dilənçilər sənətkar olub, bizə baş ağrısı verməzlər və qeyrilərə də kömək edərlər".

Zəmanə tələb edir ki, xalq bir sıra zərərli, yaramaz adət-ənənələrindən əl çəkib fayda gətirən adətlərlə yaşasınlar: "Pəs cəmiyyəti-xeyriyyə bina tutub baqi qalmaqdan və artıq nəf gətirməkdən ötrü lazımdır: qədim adətlərimizi dəyişdirib zəmanəyə muvafiq iş görmək. Biz qədim adətlərimizi dəyişdirməmək nə qədər bizləri geri salmağını sübut etməkdən ötrü bizim qonşu ermənilər və biz müsəlmanlar Bakıda keçmişdə cəmiyyəti-xeyriyyə açmağından danışacağıq" (6).

Məqalə müəllifi azərbaycanlılarla ermənilərin xeyriyyə işlərinə, millətin dirçəlişi və inkişafı naminə görülən tədbirlərə, millət övladlarının nəfi yolunda icra olunan əməllərə münasibətini aydınlaşdırmaqdan ötrü yaxın keçmişdən tipik bir əhvalat danışır. Göstərir ki, 40 il bundan əvvəl Bakıda cəmi 10-15 erməni ailəsi var idi. Doktor Rustamyan erməni uşaqlarını oxutmaq məqsədilə erməni cəmiyyəti-xeyriyyəsi" yaratmaq fikrinə düşdü. Bunun üçün pul toplamağa başladı. Bir suçu Karapet var idi. Eşşəklə su daşıyıb sataraq xeyli pul yığmışdı. Elə ki Karapet Rustamyanın təşəbbüsünü eşidir cəmiyyətə gəlib məsələnin mahiyyətini soruşur: "Ona cavab verdilər ki, xahiş edirik məktəbxanalar açıb fəqir-yetim erməni uşaqlarını oxudaq. O vaxtda Karapet… dəridən tikilmiş bir tılatını açıb doktor Rustamyana uzadıb dedi: mənim övladım yoxdur, ermənilərin hamısının uşaqlarını mən özümə övlad hesab edirəm. Və onların oxumağını çox istəyirəm. Sabahlar eşşək üstə su daşıyanda küçələrdə qoltuqlarında kitab məktəbxanalara gedən erməni uşaqlarını görəndə şad oluram. Ona görə də bu tılatının içində olan pulu mən bir neçə ildir cəm etmişəm, bu cəmiyyəti-xeyriyyəyə bağışlayıram. Bu sözü eşidib tamam məclis Karapetə mərhəba dedi. Tılatının içindən çıxan pulu sayıb gördülər ki,

min manata qədərdir" (6).

H. Zərdabi erməni suçu Karapetlə Bakıda, Şamaxıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Şuşada, Qubada, Dərbənddə və s. yerlərdə görüb üzləşdiyi, söz və rəftarlarının şahidi olduğu azərbaycanlı bəyləri, xanzadələri, hacıları, varlı şəxsləri müqayisə edir. Erməni suçu Karapetin milli qeyrəti, millət duyğusu və düşüncəsi, təəssübkeşlik hissi, uzaqgörənliyi qarşısında azərbaycanlı imkanlıların, bəylərin, söz və var-dövlət sahiblərinin nə qədər dönük, xəsis, milli qeyrətdən və təəssübkeşlikdən uzaq, vətən və xalqsevərlik hisslərindən, müasirlik düşüncəsindən kənar olduqlarını faktlarla açıb göstərir. Mənsub olduğu xalqın övladları arasında milli qeyrət və təəssübkeşliyin bu qədər sükunətli bir həddə olmasına təəssüf edir. Göstərir ki, 1871-ci ildə xeyriyyə cəmiyyəti yaratmaq məqsədilə bir nizamnamə yazdım, ərizə də tərtib edib bir neçə müsəlmana da qol çəkdirdim. Amma pul toplamaq məsələsi gələndə nəinki başqaları, hətta ərizəyə imza atanlar da yaxalarını qırağa çəkdilər.

Belə olduqda Həsən bəy Bakı qazisi Molla Cavad Axundovdan xahiş edir ki, Bakının tanınmış, imkanlı şəxslərini öz evinə toplasın ki, məsələnin faydasını onlara başa salıb maddi vəsait toplamağa təşəbbüs göstərək. Bakı qazisi, doğrudan da, lazımi şəxsləri evində toplayır. H.Z. Tağıyev də burada iştirak edir. H. Zərdabinin, H.Z. Tağıyevin və Molla Cavad Axundovun təbliğatına baxmayaraq Bakı varlılarından heç kəs xeyriyyə cəmiyyətinə pul vermir. Hərə bir bəhanə ilə aradan çıxır. Bundan məyus olan müəllif yazır: "Biz məclisdə olan 3-4 adamlar da onlardan sonra durub getdik. Mən dəftərləri qoltuğuma vurub mənzilimə gedəndən sonra bizim bədbəxt müsəlmanların fikrindən bir neçə gün xörək yeyə bilmədim və gecələr mənə yuxu haram oldu. Qardaşlar, bizim və qonşularımız ermənilərin indiki halına baxıb diqqət edin! Onda görərsiniz ki, zikr olunan otuz dörd ilin müddətində onlar bizdən nə qədər irəli gediblər və bunun ümdə səbəbi onların cəmiyyəti-xeyriyyəsi olubdur. Bəs deyilmi, haçan biz ayılacağıq?" (6).

Şamaxıda iki min manat pul toplayan Həsən bəy Gəncə, Tiflis kimi şəhərlərdə yaylaq vaxtı olduğundan lazım olan heç kəsi tapa bilmir. İrəvan və Naxçıvanda isə cüzi bir məbləğ toplaya bilir. Qarabağ-Şuşa bəyləri isə onu tamamilə məyus edir. Yemək-içməkdən başqa heç nə vermir, əli boş yola salırlar.

H. Zərdabi böyük əziyyətlər hesabına az-çox yığılan məbləği imkansız uşaqların məktəblərə cəlb edilməsinə yönəldir. Bunun nəticəsində yuxarıda QTD-nin illik hesabatında deyildiyi kimi dövlət məktəblərində təhsil alan müsəlman uşaqlarının sayı xeyli artır.

Haqqında danışdığımız maarif münəvvərinin xeyriyyə hərəkatına başlamaq təşəbbüsü tədricən də olsa, Azərbaycan ictimai-mədəni və pedaqoji gerçəkliyinə müəyyən impuls verdi, bu istiqamətdə yeni-yeni cəhdlərin yaranmasına səbəb oldu. Bu nəcib ideya ilk növbədə onun şagirdlərinə sirayət etdi. Şagirdlərinin bir neçə il sonra ona ünvanladıqları məktubda bunun aydın ifadəsini, əməli şəkildə həyata keçirmək cəhdinin nümunəsini görürük. Məsələn, Bakı realnı gimnaziyasında Həsən bəyin şagirdlərindən olmuş, sonra Peterburqda ali təhsil alan Əsgər ağa Adıgözəlov tələbəlik illərində öz müəllliminə yazdığı 4 oktyabr 1875-ci il tarixli məktubunda qeyd edir ki, "Peterburqda mən Kərimlə (Peterburqda təhsil alan başqa azərbaycanlı tələbə – dissertant) yeni cəmiyyət yaratmaq barədə razılığa gəldik: bu kasıb müsəlman tələbələrə kömək göstərən cəmiyyət olmalıdır, baxmayaraq ki, onlar hələ yoxdur (daha doğrusu, nəinki kasıb, heç varlı tələbələr də yoxdur!).

Layihəmiz belədir: mən hər ay 3, Kərim 2 manat, Nəcəf 50 qəpik. Sizdən ayda 2 manat alacağıq və s. İlin sonunda bizim 150 manat kapitalımız olacaq, üzvlərin artması hesabına o, bir neçə ilə bir az da çoxalacaq, beləliklə, onun faizi hesabına gələcəkdə kasıb müsəlman tələbələrə müəyyən köməklik göstərmək mümkün olacaq" (5, 48).

Məktubda sonra Zərdabidən xahiş edir ki, siz öz nüfuzunuzdan istifadə edib Ömməri də gəlib burada oxumağa təhrik edin. Atası ona ayda 10 manat versə, bizim də köməkliyimiz ilə o, "İran şahı kimi yaşayacaq". Məktubun məzmunundan aydın olur ki, I, II kursları Peterburqda təhsil alan Ömər adlı azərbaycanlı maddi çətinlik ucbatından III kursdan təhsilini yarımçıq dayandırmışdır. İndi azərbaycanlı tələbə yoldaşları xeyriyyəçilik yolu ilə ona kömək etmək istəyir, təhsilini davam etdirməkdən ötrü yardım göstərməyi nəzərdə tuturlar.

M.T. Əliyevin də 5 dekabr 1877-ci il tarixli (məktubun ili göstərilməsə də, məzmunundan onun 1877-ci ildə yazıldığı bəlli olur) məktubunda yazır: "…kasıb müsəlman tələbələrə kömək üçün kassaya yardım etməyi nəzərdə tuturuq. Təfsilat barədə sonra biləcəksiniz… Sizin tərəfinizdən ayda 5 manat ödəməyi qeyd etdik. Üzvlük haqqı dekabrdan etibarən kassaya ödənilməlidir. Hər bir cəmiyyət üzvü ayda 50 qəpikdən az ödəməməlidir. Üzvlərin sayı hələ ki, 15 nəfərdir, əksəriyyəti tələbədir. Bu barədə Hacı Zeynəlabdinə, Nuh bəyə və başqalarına da təklif verin" (5, 76).

Göründüyü kimi, Həsən bəy başqalarını, xüsusilə də şagirdlərini də xeyriyyəçilik hərəkatına sövq etmiş və xalqın işıqlı gələcəyi naminə bu işin əhəmiyyətini onlara anlatmışdır. Millət xadiminin səpdiyi toxumlar tədricən çiçəklənib böyüyür, şaxələnir və öz bəhrəsini verməyə başlayırdı. XX əsrin əvvəllərində bu istiqamətdə daha əhəmiyyətli işlər görüldü. Elə H. Məlikov özü həmin dövrdə yenidən xeyriyyə cəmiyyəti yaratmaq təşəbbüsü ilə çıxış etdi. 1905-ci ilin ortalarında o, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" yaratmaq məqsədilə Azərbaycan və rus dillərində Nizamnamə tərtib edərək rəsmi ərizə ilə birlikdə Qafqaz canişininə göndərdi. Nizamnamə 10 oktyabr 1905-ci ildə Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən təsdiq edilmişdir (2).

Nizamnamə 6 bölmədən, 42 bənddən ibarət olmuşdur. Burada cəmiyyətin 21 nəfərdən ibarət təsisçisinin adları da göstərilmişdir. H.Z. Tağıyev, H. Məlikov, Ə. Topçubaşov, Ə. Ağayev, Ə. Hüseynzadə və b. tanınmış şəxsiyyətlər də həmin siyahıya daxil idilər.

Cəmiyyətin ilk iclasında onun idarə heyəti də seçilmişdi ki, onların sayı 11 nəfər idi. H.Z. Tağıyev idarə heyətinin sədri seçilmişdi. İdarə heyətinin üzvlərindən biri də H. Zərdabi idi. Bunlardan əlavə Bakı qubernatoru knyaz M.N. Nakaşidzenin həyat yoldaşı Lvovna Nakaşidze onun fəxri sədri seçilmişdi.

Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin H. Zərdabi tərəfindən tərtib edilmiş nizamnaməsinin ilk bəndində cəmiyyətin məqsədi, fəaliyyət istiqaməti barədə deyilirdi: "Müalicəxanalarda, əlillər evlərində, digər xeyriyyə müəssisələrində əldən düşmüş qocaları saxlamaq; habelə kasıb müsəlman uşaqlarının orta və ali tədris müəssisələrinə daxil olub, təhsillərinin başa vurulmasına maddi yardım göstərmək. Kasıb müsəlmanlara cəmiyyətin köməyi onlara paltar, yemək verilməsi, mənzillərində tibbi xidmət göstərilməsi, nadir hallarda isə pul vəsaitinin verilməsi və tədris haqqının ödənilməsindən ibarətdir (26).

Cəmiyyət 1906-cı ildən etibarən fəaliyyətə başladı. "Cəmiyyətin maliyyə imkanlarını səfərbər edən H.Z. Tağıyev, Bakının bəzi imkanlı şəxsləri, habelə keçirilən bəzi xeyriyyə tədbirləri idi. Lakin onun ideya istiqamətinin keşiyində isə Həsən bəy Zərdabi və onun həmfikirləri dururdu" (4, 30).

"Nəşri-maarif" adı ilə tanınan bu cəmiyyətdən sonra Azərbaycanda bu nümunədə bir sıra yeni xeyriyyə cəmiyyətləri də meydana gəldi. "Nicat" (22 avqust, 1906), "Səadət" (7 iyun, 1907), "Səfa" (14 avqust, 1912) və s. müsəlman xeyriyyə cəmiyyətləri bu qəbildəndir. Xalqımızın ictimai, pedaqoji, maarif və mədəniyyət tarixində əhəmiyyətli iz qoymuş həmin cəmiyyətlərin hamısı Həsən bəyin təməlini qoyduğu əməl və ideya sarayının sonrakı sütunlarıdır.

**Məqalənin aktuallığı**. Məqalədə ilk dəfə xeyriyyəçilik hərəkatının inkişafında H. Zərdabinin fəaliyyəti araşdırılmış, onun bu sahədəki fəaliyyətinin "Nəşri-maarif", "Nicat", "Səadət", "Səfa" xeyriyyə cəmiyyətlərinin yaranmasına təsiri üzə çıxarılmışdır.

**Məqalənin elmi yenliyi**. Məqalədə ilk dəfə Azərbaycanda xeyriyyəçilik hərəkatının yaranmasında Həsən bəy Zərdabinin rolu araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən Azərbaycan məktəb və pedaqoji fikir tarixinin kursunda tədrisində mühazirə və seminar məşğələlərində istifadə etmək olar.

## Ədəbiyyat

1. AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutu. H. Zərdabinin arxivi. Fond 3, s.v. 163, vərəq 1-4.
2. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi. Fond 46, siyahı 12, s.v. 395, vərəq.
3. Azərbaycan pedaqoji antologiyası. XIX əsr – XX əsrin əvvəlləri (tərtib edəni: Əhmədov H.). 3 cilddə. II c., Bakı: Təhsil, 2011.
4. Cavadov C. Azərbaycanda xeyriyyəçilik hərəkatı (XIX əsrin sonu və XX əsrdə). Bakı: Elm, 1999.
5. Həsən bəy Zərdabinin bioqrafiyası və epistolyar irsi / Nəşrə hazırlayanlar: Məmmədova M., Ramazanova A. AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutu. Bakı: Nurlan, 2006.
6. Zərdabi H. Cəmiyyəti-xeyriyyə binası. "Həyat" qəz., 1905, 25 noyabr, 8 dekabr

**Р. Гурбанова**

## Борьба Г. Зардаби за создание благотворительного общества в Азербайджане
## Резюме

Г.Зардаби является первым инициатором в борьбе за создание благотворительных обществ в Азербайджане. Он начал борьбу в этом направлении в 20-х годах. XIX. В начале XX века в Азербайджане появились некоторые благотворительные общества. Определенную роль имеет Г. Зардаби в их создании. Гасан бек имеет огромные заслуги в определении идейных направлении, в практической деятельности этих обществ.

В этой статье сделана попытка рассмотреть и выявить работы проделанные в этом направлении.

**R. Gurbanova**

## The struggle of G. Zardabi for the creation of a charitable society in Azerbaijan
## Summary

G. Zardabi is the first initiator in the struggle for the creation of charity societies in Azerbaijan. He began to struggle in this direction in the 1920s. XIX. At the beginning of the 20th century, some charitable societies appeared in Azerbaijan. G. Zardabi has a role in their creation. Hasan bey has great merit in determining the ideological direction, in the practical